# Məktəbəqədər yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin formalaşmasının imkan və yolları

**Könül Elxan qızı Nəsibova**
*ADPU-nun müəllimi*
**E-mail:** samsung1918272@gmail.com

**Rəyçilər:** p.ü.f.d. V.S. Əliyeva,
p.ü.f.d. N.R. Əliyeva

**Açar sözlər:** məktəbəqədər təhsil, vətəndaşlıq tərbiyəsi, məktəbəqədər yaşlı uşaqlar, ailə tərbiyəsi

**Ключевые слова:** дошкольное образование, гражданское воспитание, дошкольники, семейное воспитание

**Key words:** preschool education, citizenship education, preschool children, family education

Məktəbəqədər yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi məqsədyönlü və kompleks həyata keçirilən tədbirlər sistemidir. Bu işin əsas məqsədini layiqincə həyata keçirmək üçün müxtəlif metod və priyomlardan, imkan və vasitələrdən istifadə edilməlidir.

Tərbiyənin hər bir tərkib hissəsinin təməli ailədə qoyulduğu kimi vətəndaşlıq tərbiyəsinin də əsası ailədə qoyulur. Uşaq dünyaya gəldiyi ailə mühitini zaman keçdikcə mənimsəməyə, onu kəşf etməyə çalışır. Ailədə yaradılmış tərbiyə mühiti bu ailənin ictimaiyyətdəki statusunu müəyyənləşdirir.

Hər şeydən öncə valideyn özü vətəni üçün ləyaqətli vətəndaş olmağı dərk etməlidir ki, övladını da Vətəninə layiq yetişdirə bilsin. Bu işin nə qədər məsuliyyətli bir vəzifə olduğunu valideyn olan hər kəs dərk etməlidir.

Məktəbəqədər yaşlı uşaqlarla aparılan hər bir tərbiyə işində xüsusi diqqət ediləcək bir sıra vəzifələr vardır. Məktəbəqədər yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin formalaşdırılması üçün böyüklərin bilməli olduqları bəzi məqamlara baxaq: Uşaqlarda torpağı qorumağı, heç bir çətinlikdən qorxmamağı, xalqımıza dərin məhəbbət və sədaqətlə bağlı olmağı tərbiyə etmək; Uşaqlarda Vətənə məhəbbəti sözdə deyil, işdə göstərməyi aşılamaq; Uşaqları dostluq ruhunda tərbiyə etmək, onlara azərbaycançılıq hissi aşılamaq; Məktəbəqədər yaşlı uşaqlarda düşmənə qarşı hər zaman ayıq olmaq, özünü müdafiə etmək hissi tərbiyə etmək. Bütün bunları həyata keçirmək üçün ailədə müvafiq şərait yaradılmalıdır. Məsələn, valideynlər evdə Azərbaycan Respublikasının atributlarını (bayraq, gerb və s.) saxlamalı, onlara hörmətlə yanaşmalı, ən yüksək yerdə saxlamalıdır. Həmçinin, valideynlər tərəfindən himnimizə hörmətdə aşılanmalıdır. Valideynlər himn çalınanda ayağa durmaq, sakit olmaq və oxumaq nümayiş etdirməlidirlər.

Məktəbəqədər yaşlı uşağın valideynlərinin dövlət atributlarına olan münasibətindən aldığı təəssürratlar onun şüurunda vətəndaşlıq anlayışı ilə bağlı ilk izlər buraxır. Belə ki, uşağın hərtərəfli, ahəngdar inkişafı naminə onun üçün inkişafetdirici ailə mühiti yaradılmalıdır. Uşaq ailə mühitində valideynlərinin davranış və dialoqlarına şahid olur, onların addımlarını izləyir. Öz uşaq düşüncəsi ilə anladığı onun şüuruna yeriyir.

Təəssüflə qeyd etmək istərdim ki, elə ailələr var ki, nəinki, Vətən atributlarına (bayraq, gerb və s.) qarşı qayğı və diqqət aşılanılır, hətta o evdə atributlarımız (bayraq, gerb və s.) belə yoxdur. Elə valideynlər var himnimizin sözlərini bilmir. Təbii ki, bütün bunlar ürəkaçan mə-

qamlar deyil. Bütün bunlarla mübarizə aparmaq üçün məktəbəqədər tərbiyə müəssisəsinin tərbiyəçilərinin üzərinə məsuliyyətli vəzifələr düşür. Tərbiyəçilər məlumatlı olmalıdırlar ki, onlar təkcə uşaqlarla deyil, həm də valideynlərlə də işləməlidirlər ki, işləri səmərəli nəticə versin.

Ailədə məktəbəqədər yaşlı uşaqlarda əsgərlərimizə, Milli Orduya məhəbbət tərbiyəsi də əsas vasitələrdən sayılır. Bu zaman uşaqların yaş və anlaq səviyyələrinə uyğun bədii əsərlər üzrə müxtəlif tədbirlərin keçirilməsinə, şerlərin oxunmasına geniş yer verilməlidir. Ailədə Vətən əsgərlərinə məhəbbətlə bağlı əxlaqi söhbətlər müntəzəm keçirilməlidir. Uşaqlar müvafiq hərbi hissələrə, tarixi yerlərə ekskursiyalara aparıla bilər. Valideynlərlə birlikdə uşaqların yaşına uyğun olaraq Vətənə məhəbbət tərbiyəsindən bəhs edən sənədli filmlərə və televiziya verilişlərinə baxış təşkil edilməlidir.

Vətəndaşlıq tərbiyəsi elə bir hissdir ki, uşaqlarda o, yarandıqca bir sıra əxlaqi keyfiyyətlərdə formalaşmağa başlayır. Məsələn, uşaqlarda böyüklərə hörmət, nəzakətli münasibət, mədəni davranış, doğruçuluq, düzlük, sadəlik, mehribançılıq, gülərüzlülük, dostluq kimi əxlaqi keyfiyyətlər inkişaf etdirilir.

Məktəbəqədər yaşda ailə və bağça uşaqlarda vətənpərvərlik hissinin formalaşmasını birlikdə həyata keçirməlidirlər. Bu işə öz ailəsinə, doğma uşaq bağçasına, el-obasına dərin məhəbbət oyatmaqla, humanizm tərbiyəsindən başlamaq olar. Tərbiyəçi və valideynlər öz əxlaqi keyfiyyətləri ilə uşaqlara nümunəvi mühit yaratmalıdırlar.

Məktəbəqədər yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi işinin elmi-pedaqoji baxımdan düzgün qurulması üçün valideynlər maarifləndirilməlidirlər.

Vətəndaşlıq tərbiyəsi işində önəmli məsələlərdən biri uşaqlarla keçirilən asudə vaxtdır. Bu baxımdan uşaqlarla keçirilən asudə vaxt valideynlərin öz övladlarının xarakterik xüsusiyyətlərini daha yaxından tanımağa kömək edən əlverişli imkandır. Bu imkandan yararlanacaq valideynlər uşaqların Vətənə olan məhəbbətini artıra bilərlər.

Aparılan müşahidələr göstərir ki, valideynlərin vətəndaşlıq tərbiyəsi ilə bağlı görüşləri onların vətəndaşlıq şüuru ilə sıx bağlıdır. Bu baxımdan da valideynlərin vətəndaşlıq anlayışı ilə bağlı təsəvvürlər və qavrayışlar sferasının araşdırılması da əhəmiyyətli məsələlər sırasındadır.

Vətəndaşlıq tərbiyəsinin aşılanması işində ailəvi gəzintilərin təşkil edilməsinə də müraciət olunmalıdır. Tarixi məkanlara, muzey və sərgilərə gəzintilərin və ekskursiyaların təşkil edilməsi ilə həm uşağın vətənlə və ətraf aləmlə bağlı dünyagörüşü formalaşmış və artmış olur, həm də Azərbaycan tarixinə aid maddi və mənəvi mədəniyyət abidələri ilə tanış olur.

Ailədə folklor nümunələri - nağıllar, dastanlar, bayatılar və oxşamalar, sanamalar və s. kimi şifahi xalq ədəbiyyatı nümunələrinin nəql edilməsi uşaqların vətənpərvərlik tərbiyəsi işində önəmli rol oynayır. Qəhrəmanlıq haqqında nağıl və dastanların, vətən haqqında bayatıların nəql edilməsi uşaqlarda erkən yaşlardan qəhrəmanlıq, igidlik kimi bacarıqların formalaşmasına təsir göstərir. Nağılların uşaqlara ötürmək istədiyi mesajı uşağa elə izah etmək lazımdır ki, uşaq nağıl vasitəsi ilə də tərbiyələnmiş olsun. Burada mənəviyyatı anlatmağa çalışan nağıl və hekayələr, vətənə aid bayatı və ya sanamalar tərbiyə prosesində əvəzolunmaz vasitə kimi çıxış edir.

Ümumiyyətlə, valideynlər çalışmalıdırlar ki, şəxsi nümunə uşaq üçün örnək hesab ediləcək səviyyədə olsun. Ata və ananın müsbət və ya mənfi əxlaqi keyfiyyətləri övladın xarakterində vəhdət təşkil edəcəkdir. Ailə sağlam dayaqlar üzərində qurulursa, sağlam gələcəyin təminatı da uşaqlıqdan yaranır. Bir çox valideynlər səriştəsizlik və təhsilsizlikdən tərbiyə prosesini gecikdirir. Unutmaq olmaz ki, sağlam əqidəli, vətənpərvər ruhlu gələcək üçün ailədə sağlam təfəkkürlü valideynlər olmalıdır. Çünki övladlar valideynlərinin davamçıları və gələcəyin təminatçılarıdır.

**Məqalənin aktuallığı.** Məktəbəqədər yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin formalaşması məsələləri həm dövlət sənədlərinin əsas tələbi kimi, həm də uşağın hərtərəfli inkişafı üçün vacib şərtlərdən sayılır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə məktəbəqədər yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin formalaşmasının imkan və yolları araşdırılaraq təsnif edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin formalaşması mövzusunda mühazirə, məqalə, tezis və elmi işlərin hazırlanmasında istifadə oluna bilər.

## Ədəbiyyat

1. Əliyeva Ş.Q. Məktəbəqədər təhsildə təlim və tərbiyənin metodikası. Bakı, 2016, 87 s.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika. Bakı, 2000.
3. Z.Vəliyeva. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi. Bakı, 1993.
4. S.Axundov, A.Həsənov. Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı, 1991.

**К.Э. Насибова**

## Возможности и способы сформулировать гражданское образование у детей дошкольного возраста

## Резюме

В статье об отношении родителей к государственным атрибутам оставляет первые следы в его понимании гражданства. Гражданское воспитание дошкольников - это система целенаправленных и комплексных мер. Педагоги должны знать, что они должны работать не только со своими детьми, но и со своими родителями, чтобы их работа могла приносить результаты.

Воспитание гражданства - это такое чувство, что когда речь заходит о детях, оно начинает формировать ряд моральных качеств. Родители должны быть образованы таким образом, чтобы научно-педагогической работой детей дошкольного возраста можно было должным образом управлять.

**G.E. Nasibova**

## Possibilities and ways to formulate citizenship education in pre-school children

## Summary

The article  impression of parents' attitudes towards state attributes leaves the first imprints on his understanding of citizenship. Citizenship education of preschool children is a system of purposeful and complex measures. Educators should be aware that they must work not only with their children but also with their parents so that their work can produce results.

The upbringing of citizenship is such a feeling that when it comes to children, it begins to form a number of moral qualities. Parents should be educated so that scientifically-pedagogical work of preschool children can be properly managed.

**Redaksiyaya daxil olub:** 04.11.2019